**“Bir damcı” su emalı müəssisəsində həyata keçirilən**

**plandankənar yoxlamaya dair məlumat**

**(25 may 2023)**

İstehlakçı şikayəti əsasında Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti 37 ünvanında yerləşən fiziki şəxs Nabatalıyev Həsi Yunus oğluna məxsus “ Bir damcı” su emalı müəssisəsində plandankənar yoxlama keçirilib. Yoxlama zamanı müəssisədə qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların və sanitariya norma və qaydalarının bir sıra tələblərinin pozulduğu müəyyən edilib. Belə ki, müəssisənin qeydiyyatdan keçmədiyi və çıxarışla təmin edilmədiyi, texnoloji ardıcıllıq prinsipinin pozulduğu, divar və döşəmə səthlərinin asan yuyulub təmizlənməni təmin edən materialla üzlənmədiyi, mexaniki havalandırma sisteminin quraşdırılmadığı, işçi üçün sanitar-məişət avadanlıqları ilə təchiz edilmiş soyunub-geyinmə sahəsinin təşkil olunmadığı, xüsusi iş geyimi ilə təmin edilmədiyi və dövri tibbi müayinədən keçmədiyi məlum olub. Eyni zamanda, müəssisədə satışı həyata keçirilən suyun qablaşdırılması üçün qablaşdırma materiallarının təmin olunmadığı, suyun alıcının təqdim etdiyi qablara doldurularaq satışa təqdim olunduğu, beləliklə, məhsulların markalanmadığı müəyyən edilib. Nöqsanlarla bağlı qanunvericiliyə uyğun olaraq müəssisədə suyun emalının qadağan edilməsinə dair məhdudlaşdırıcı qərar qəbul olunub və müəssisə rəhbəri barəsində inzibati protokol tərtib edilib.